*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 499-504*

https://doi.org/10.62837/2026.4.499

**İRADƏ QAFUR QIZI RƏSULI**
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Ədəbiyyat və dillər kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru***
*irada.rasuli@gmail.com*

# MİRZƏ İBRAHİMOVUN NƏZƏRİ-ESTETİK GÖRÜŞLƏRİ

**Açar sözlər: Mirzə İbrahimov, ədəbi-tənqidi görüşlər, Azərbaycan ədəbiyyatı, realizm, xəlqilik, publisistika, estetik baxışlar**

**Ключевые слова: Мирза Ибрагимов, литературоведческие взгляды, азербайджанская литература, реализм, народное искусство, журналистика, эстетические взгляды.**

**Key words: Mirza Ibrahimov, literary views, Azerbaijani literature, realism, folk art, journalism, aesthetic views.**

Xalq yazıçısı Mirzə İbrahimov Azərbaycan ədəbiiyyatı, mədəniyyəti və ictimai fikri tarixində xüsusi yeri olan sənətkarlarımızdandır. Görkəmli sənətkar istedadlı nasir, dramaturq, publisist və ictimai xadim idi. Qüdrətli qələm sahibi yazırdı ki, " soyuq ürəklə yazıçı olmaq mümkün deyil. Sınıq tardan səs çıxmaz. Ancaq köklənmiş tarın hansı siminə toxunsan qeyri-adi, məlahətli səslər eşidəcəksən. Həqiqi yazıçı ürəyi də belədir. Həyat qarşısında, insanlar qarşısında köklənmiş tar kimidir".1.

Mirzə İbrahimov publisistik fəaliyyətə 1930 – cu ildən başlamışdır. Yazıçının klassik ədəbiyyatımızın görkəmli nümayəndələrinin yaradıcılığına həsr etdiyi ədəbi-tənqidi məqalələri elmi siqləti ilə seçilir. Müxtəlif illərdə Nizami, Nəsimi, Füzuli, Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə haqqında dərin məzmunlu məqalələr yazmış, onların yaradıcılığının özəl keyfiyyətlərini üzə çıxarmışdır. Xalq yazıçısı Nizami Gəncəviyə həsr etdiyi elmi məqaləsində onu müdrik filosof, humanist və vətənpərvər şair, güclü xarakterlər müəllifi və azadlıq carçısı kimi təqdim edir. Yazıçıya görə Nizami yaradıcılığının bədii kamilliyi, ictimai – fəlsəfi mənasının dərinliyi və dolğunluğu etibarı ilə dünya ədəbiyyatının inkişafında Homer, Dante, Höte, Şekspir, Puşkin kimi müstəsna rol oynamışdır.

Yazıçı dahi şairin ədəbi irsindəki milli xüsusiyyətləri və tarixi hadisələri təhlil edərək yazır: "Nizami əsərlərinin canını təşkil edən dərin humanizm, ədalət və xalq səadəti ideyaları həmin əsərlərin qatı qaranlığı, amansız zülm və cəhaləti içərisindən həqiqi bir günəş işığı kimi süzülüb gəlmişdir. Nizaminin əsərləri bir xəzinədir – insan həyatı və yaşayışının mənasını açan müdrik fikirlər, hakimanə sözlər xəzinəsidir."2.

Müasirlik, xəlqilik və zəmanəyə həssas münasibət Mirzə İbrahimov yaradıcılığının ana xəttini təşkil edir. Ümumiyyətlə, yazıçının Nizami, Füzuli, M.F.Axundov, Cəlil Məmmədquluzadə, Sabir, Nəriman Nərimanov, N.Vəzirov və

başqa klassiklər haqqında elmi əsərləri, el ədəbiyyatı haqqında tədqiqləri də bu nəcib məqsəd üçün yazılmışdır. Akademik Məmməd Cəfər yazıçıya həsr etdiyi məqaləsində qeyd edir ki, "İstedadlı söz ustası, nasir, qüdrətli publisist, zəngin təcrübəli, universal bilikli alim və ədəbiyyat tənqidçisi olan Mirzə İbrahimovun bir yazıçı kimi məziyyəti təkcə onun istedadında deyil, bu istedadı nəyə sərf etməsində, onun sənətinin həyatiliyində, aktuallığında və ideyalılığındadır."2.

Mirzə İbrahimov görkəmli yazıçı Nəriman Nərimanovun yaradıcılığı ilə də ardıcıl məşğul olmuşdur. O. hər məqalədə N. Nərimanov yaradıcılığının yeni bədii keyfiyyətlərini açır, publisistikası, ədəbi – tənqidi görüşləri ilə ictimai- siyasi fəaliyyəti arasında bir rabitə görürdü. Onu güclü ideala malik sənətkar kimi səciyyələndirərək yazırdı: "N.Nərimanov Azərbaycanı, onun tarixini, keçmişini, mədəniyyətini çox gözəl bilirdi, xalqın zəngin mənəviyyatına tanış idi, onu pak və odlu bir ürəklə sevirdi, xalqın yaradıcılıq qüvvələrinə inanırdı. Elə buna görə də Nərimanov xalqın dərdlərini dərindən duyurdu, əl-qoluna sarılan zəncirlərdən, qüvvələrini sarsıdan yaralardan və çibanlardan xəbərdar idi. Nərimanov görürdü ki, Mirzə Fətəli Axundov ilk zərbə endirdiyi bu paslı zəncirlər hələ qırılmamışdır, yaraların közü qoparılmışsa da, özləri sağalmamışdır, ilk zərbə almış, lakin ölməmiş parazitlər tərpəşirlər, əks-hücuma keçirlər, işıq ucu görünən hər şeyi bağlamaq istəyirlər, onlar xalqı soymaq və əbədi itaətdə saxlamaq üçün mövhumatı, cəhaləti yayırlar. Bəs nə etmək? Nadanlığa qarşı mübarizə! 2.

Mirzə Ibrahimov Nəriman Nərimanovla M.Ə.Sabirin yaradıcılığı arasında amal və ideya yaxınlığı tapır. Sabirin ideya aləmi, ictimai fikir tarixindəki roluna, şeirlərinin bədii xüsusiyyətlərinə xüsusi önəm verir. "Böyük şairimiz Sabir" kitabında, ayrı-ayrı məqalələrdə Sabiri satirik poeziyanın klassik nümunələrini yaradan, köhnə şeirin əsaslarını qıran Şair adlandırır. Qeyd edir ki, Sabir şeiri həyata çəkdi, onu cəmiyyətin, insanın təbii yaşayışı ilə birləşdirdi. Buna görə də Sabir şeirin ifadə vasitələrini, formasını, təşbehlərini dəyişdi, ona qədər heç bir şairin işlətmədiyi yeni forma, yeni təşbeh, yeni ifadələr yaratdı. Sabir öz əsərlərində xalqının dərdini yana-yana əks etdirmişdir. Sabir poeziyasının fəlsəfi-estetik özəlliklərindən və realizmindən söz açan ədib onu qəhrəman, qorxmaz bir mübariz kimi səciyyələndirir: "Yaradıcılığının bütün mənası, ruhu, mündəricəsi etibarilə Sabir həqiqi xalq şairidir. O öz zəmanəsindəki xalq ruhunun təcrümanıdır, xalq həyatının müəyyən tarixi dövrünü sənətdə əbədiləşdirmiş parlaq bir güzgüdür. Sabirin realizmi dərin, ədalətli realizimdir, təkcə Azərbaycan həyatını deyil, bütün zəmanəsini əks etdirmişdir". I Mirzə İbrahimovun tədqiqatlarında Sabir orijinaldır, qüdrətli realistdir, dilə ideya silahı kimi baxan sənətkardır. Onun "hər bir əsəri odlu, yanan bir ürəkdən çıxmışdır. Onun hər şeiri, hər misrası yandırır, təsir edir, adamı tərpədir və hərəkətə gətirir".

Bütün bu oxşarlıq Sabiri böyük demokrat Cəlil Məmmədquluzadə ilə birləşdirir. Xalq yazıçısı Cəlil Məmmədquluzadədən danışanda Sabiri, Sabirdən yazanda C. Məmmədquluzadəni xatırlayır, onları əqidə, məslək, amal və ideal

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 4, 2026
Səh. 499-504

qardaşları adlandırır. M. İbrahimov C. Məmmədquluzadənin həyatını və ədəbi fəaliyyətini, ictimai fikir tarixində rolunu ilk dəfə tədqiq edən yazıçı-alimdir. O, 1939- cu ildə C. Məmmədquluzadəyə həsr etdiyi " Böyük demokrat" kitabını çap etdirmişdir. 1966-cı ildə isə C. Məmmədquluzadə əsərlərinin bədii xüsusiyyətlərindən bəhs edən "Böyük satira ustası" nı yazmışdır. Professor Abbas Hacıyev xalq yazıçısına həsr etdiyi tədqiqat əsərində qeyd edir ki, "Mirzə İbrahimovun C. Məmmədquluzadə ilə "ittifaqı" 1937- ci ildən başlanmışdır. O, həmin il "Qırmızı zəncirlər" və "İki stilin mübarizəsi"ni yazıb ictimaiyyətin nəzərini bu böyük ədibə cəlb etmişdir. Alim bu məqalələrində və "Molla Nəsrəddin", "Ədəbiyyat və incəsənətimizdə satira", "Ölməz sənətkar", "Yazıçı, jurnalist, müəllim" də C. Məmmədquluzadənin mövzu və sənətkarlıq aləmini açır; "Molla Nəsrəddin"i realist – demokratik axara salan ədəbi, ictimai-siyasi mühitin təhlilini verir, onu mürtəce mətbuata qarşı mübarizədə boy atmasını nəzərə çapdırır."2.

Mirzə İbrahimovun ədəbi-tənqidi məqalələri sırasında Cənubi Azərbaycan mövzusu xüsusi yer tutur. Yazıçı Cənubi Azərbaycanda baş verən bütün hadisələrlə dərindən maraqlanmış, roman, povest və hekayələrindən əlavə, bir sıra məqalə və oçerklərini də bu mövzuya həsr etmişdir. "Təbriz səfəri", "İran Azərbaycanında demokratik hərəkat haqqında", "Onlar da günəşi görəcəklər", "Cənubi Azərbaycanda milli demokratik hərəkat haqqında", "Səhər açılacaq", "Xalqın səsi", "Azadlıq mübarizəsi", "Məhəbbətin var olsun", "Xalqların azadlıq və səadət yolu", "Firidun İbrahimi" və s. əsərləri Azərbaycan publisistikasına yeni keyfiyyətlər gətirdi.

Mirzə İbrahimovun ədəbi-tənqidi görüşləri içərisində rus və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığına həsr etdiyi məqalələri də xüsusi yer tutur.Yazıçının Puşkin , Belinski, Çernışevski, Tolstoy, Krılov, Qoqol, Çexov, Qorki və başqalarının yaradıcılığına həsr etdiyi məqalələrdə rus realistlərini formalaşdıran ictimai-siyasi mühit və ədəbi zəmin üzərində dayanaraq realizmin fəlsəfi mahiyyətini açır. Bu baxımdan "Lev Tolstoyun realizmi haqqında", "Mütəfəkkir tənqidçi", "Çexov və zamanəsi", "Ölməz sənətkar" məqalələri elmi siqləti ilə seçimlənir. Rus ədəbiyyatına dərindən bələd olan yazıçı qeyd edir ki, Puşkin, Belinski, Nekrasov, Tolstoy, Çernışevski və Qorki zamanı qabaqlayan, bəşəri ideallar yayan, həmişə müasirləşən sənətkarlardır.

Yazıçının "Cavidi yad edərkən" məqaləsində xalq yazıçısı şairin, dramaturqun yaradıcılığından bəhs edərək yazırdı: "Cavidin pak insaniyyət duyğuları ilə dolu olan romantik poeziyası, romantik poetik təfəkkürü və arzuları iyirminci əsr bəşər tarixinin, bəşər fikri və ehtiraslarının ən uca, ən yüksək zirvəsini təşkil edən inqilabın romantikası ilə harada isə qovuşur, inqilabın yüksək humanizmi ilə həmahəng səslənərək zülmdən, cəhalətdən, fanatizmdən azad olan bir cəmiyyət qurmağa başlamış insanların ürəyini, ruhunu oxşayırdı. Cavidin əsərləri böyük həyati əhəmiyyətə və təsir qüvvəsinə malik idi və indi də öz dərin humanist Məqalədə qeyd

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 499-504*

olunur ki, onun "Şeyx Sənan", "İblis" kimi əsərlərindəki bir çox beytləri, aforistik ifadələri dilimizin əzbəri idi, bir sıra səhnələr və epizodlar xəyalımızdan çəkilməzdi.

M.İbrahimov, C.Cabbarlı yaradıcılığında iki keyfiyyətə xüsusi önəm verir: onlardan biri, mütərəqqi ideyalar, xalq, vətənpərvərlik duyğuları, işıqlı humanist məzmun, ikincisi isə bədiiliklə, sənətkarlıqla bağlı keyfiyyətlərdir. Onun əsərləri böyük ehtirasla, canlı insan ehtirası ilə yazılmışdır. Oxuculara təsir edən, tamaşaçıları düşündürən hərarətli bədii keyfiyyətlərə malikdir. Məqalənin sonunda ədib C.Cabbarlı ilə olan görüşlərindən söhbət açır və onu ideal bir insan kimi xatırlayır: "C.Cabbarlının şəxsiyyəti, irəli sürdüyü böyük sənətin, böyük ədəbiyyatın məramına tamamilə uyğun gəlirdi. C.Cabbarlı mənim nəinki bir sənətkar kimi pərəstiş etdiyim yazıçı idi, həm də ideal bir insan kimi xəyalıma daxil olmuşdu". Böyük rus tənqidçisi Belinski yazırdı ki, "Ədəbiyyat cəmiyyətin həyatının ifadəsi olmalıdır. Ədəbiyyat cəmiyyətə həyat vermir, bəlkə cəmiyyət ədəbiyyata həyat verir. Ədəbiyyata hücum edərkən onun haqqında gərək ədalətsiz olmayasan. 2.

Mirzə İbrahimovun "Ustad tarzən" məqaləsi böyük sənətkar, tarzən Qurban Primova həsr olunub. Ustad tarzənin məlahətli, ürəkləri ehtizaza gətirən çalğısından məhəbbətlə söz açan ədib qeyd edir ki, tar onun üçün çörək qədər müqəddəs idi: "Qurban tarı sinəsinə basıb gözlərini yumaraq, yaxud hara isə naməlum bir nöqtəyə dikərək çaldığı zaman sanki nağıllar dünyasına, xəyalın yaratdığı füsünkar bir aləməgedirdi, sanki həyatın gözəlliyi, insan həyatının şirin arzuları, məhəbbətin ucalığı, varlığın dərin fəlsəfi mahiyyəti barədə fikirlər və hisslər onu məst eləyirdi, həyatın bütün xırdalıqlarından uzaq və azad, əzəmətli, füsünkar gözəllik aləminə uçururdu.

Teatr tarixində xüsusi yeri olan, istedadlı aktyor Sidqi Ruhulla yaradıcılığından söz açan M.İbrahimov aktyorun keçidiyi mənalı həyat yoluna nəzər salır. Onun üçün bütün həyatın, bütün varlığın mənası səhnə sənətində, aktyorluqda idi: "Sidqinin istedadı yüksək və çoxcəhətli idi. O, səhnəmizdə çox rollarda çıxış edib, çox obrazlar yaradıb. Onların içində həm realist, həm də romantik, həm dramatik, həm də komik, hətta tragi-komik surətlər də var."3

Mirzə İbrahimov Üzeyir Hacıbəyli haqqında elə səmimiyyət, geniş ürək və səxavət göstərərək bəhs edir ki, oxucu bununla yazıçının böyüklüyünə hörmət və ehtiram bəsləməli olur. Əslində ədəbiyyat, ədəbi mühit də səxavəti və xeyirxahlığı tələb edir. Mirzə İbrahimovun Ü.Hacıbəyli barədə xeyirxah fikirləri lazımı səviyyədə olduğundan obyektiv səslənir. Fikir verək: "Opera yazmaqla Üzeyir Hacıbəyov Azərbaycan ictimai mühitində və incəsənətində böyük novator kimi çıxış etmişdi. Bu novatorluğun ən müvəffəqiyyətli cəhəti tamamilə klassik irsə əsaslanmasında, həm ədəbi, həm də musiqi yaradıcılığı cəhətdən xalqın min illər ərzində yaratdığı ənənələrə söykənməsində idi. Üzeyir Hacıbəyovun musiqili komediyalarında varlığın, insanların bədii təsvir prinsipi əsasdır. Bu komediyaların ədəbi mətnini də Üzeyir bəyin özü yaratmışdır. Komediya sənətkarlığı və bədii dil cəhətdən bu əsərlər

müəllifin böyük istedadını nümayiş etdirir. Üzeyir Hacıbəyov Azərbaycan xalqının ölməz sənətkarıdır. Azərbaycan incəsənəti və mədəniyyəti tarixində nəhəng simadır. Onun irsi çox zəngin və çox qiymətlidir.

I Ümumiyyətlə, görkəmli ədib yaradıcı fəaliyyəti boyu yazıçılarımızın müxtəlif nəsilləri ilə yaradıcılıq əlaqələrində olub. Xalq yazıçısının milli klassik irsimizə, eyni zamanda ədəbi prosesə, ədəbiyyatşünaslığa, ədəbi tənqidə və sənət məsələlərinə həsr etdiyi elmi-nəzəri məqalələri və tədqiqat əsərləri bu gün də öz aktuallığını saxlayır.

Ötən əsrdə xalqımızın taleyi, onun dili və mədəniyyəti ilə bağlı elə ciddi hadisə, elə elmi mübahisə, müzakirə olmamasıdır ki, orada Mirzə İbrahimovun sərrast, müdrik sözü eşidilməsin. Ədəbiyyatda realizm müzakirələrindən sonra Şərq renassansı, o cümlədən Azərbaycan intibahı ətrafındakı mübahisələrə Mirzə İbrahimov belə yekun vurdu: “Azərbaycan intibahı müzakirə predmeti yox, faktdır”.

Mirzə İbrahimovun ədəbi – nəzəri irsi onun bədii yaradıcılığı ilə bərabər iyirminci əsr Azərbaycanın mədəni tərəqqisində böyük rol oynamış və bu irsin əxlaq və sənət dərsləri tükənməz bir məktəbdir.


## РЕЗЮМЕ

Народный писатель Мирза Ибрагимов, автор эссе, рассказов, повестей, романов, пьес, научно-популярных и литературно-критических статей, получил известность как один из выдающихся представителей зербайджанской литературы XX века.

Объектом исследований писателя была не только азербайджанская литература и культура. В своих научно-исследовательских работах он также опирается на статьи, посвященные творчеству наиболее выдающихся представителей мировой литературы, что дает ему четкое представление о мире литературы и искусства.


**IRADA GAFUR QIZI RASULI**

## THEORETICAL AND AESTHETIC VIEWS OF MIRZA IBRAHIMOV


## SUMMARY

People's writer Mirza Ibragimov, the author of essays, short stories, novels, plays, popular scientific and literary-critical articles, received fame as one of the outstanding representatives of Azerbaijani literature of the 20th century.

The object of the writer's studies was not only Azerbaijani literature and culture. In his research works, he also relies on articles devoted to the works of the most outstanding representatives of world literature, which gives him a clear idea of the world of literature and art.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 499-504*

## ƏDƏBIYYAT SIYAHISI

1. Mirzə İbrahimov. Xəlqilik və realizm cəbhəsindən . Bakı. 1961. 522 səh.
2. Mirzə İbrahimov. Niyəsiz, necəsiz bir yazısan sən. Bakı, "Yazıçı" 1985. 547 səh.
3. Abbas Hacıyev. Mirzə İbrahimov. Bakı, "Yazıçı" 1982. 207 səh.
4. Qasım Qasımzadə. Ədəbiyyatda millilik və beynəlmiləllik. Bakı. 1982. 270 səh.
5. Belinski V.Q. Rus ədəbiyyatı klassikləri haqqında. Bakı. 1954.. 222 səh.
6. Alışanlı Ş . Tarixi ədəbi təcrübə göstərir ki ... "Ədəbiyyat qəzeti", 26 sentyabr 2014.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Eldar qızı Əlizadə**